BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2006

# ƏMƏK MİQRASİYASININ UNİVERSAL SƏVİYYƏDƏ TƏNZİMLƏNMƏSİ VƏ ƏMƏKÇİ-MİQRANTLARIN HÜQUQİ VƏZİYYƏTİ

**Ə.İ.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***

Özündə milyonlarla insanı və geniş sayda dövlətləri birləşdirən miqrasiyanın miqyasını və əhəmiyyətini nəzərə alaraq beynəlxalq ictimaiyyət, miqrantların hüquqlarının müdafiəsini təmin edəcək və bu sahədə dövlətlərin mövqelərinin razılaşdırılmasına yardım göstərəcək normaların yaradılmasına çalışır. Əməkdaşlıq ikitərəfli və çoxtərəfli səviyyədə, regional və universal təşkilatlar çərçivəsində inkişaf etdirilir. Dövlətlər əməkçilərin beynəlxalq miqrasiyası üçün normal, ədalətli və humanist şərtlərin müəyyən edilməsi zamanı nəinki təkcə öz əmək resurslarını və tələbatlarını nəzərə alırlar, həmçinin əməkçi miqrantların və onların ailə üzvlərinin sosial, iqtisadi mədəni, mülki və digər hüquqlarının qorunmasına, o cümlədən belə miqrasiyanın müvafiq cəmiyyət üçün nəticələrinə xüsusi diqqət yetirirlər.

Əməkçi miqrantların vəziyyətini yaxşılaşdırmaq və hüquqlarını təmin etmək üçün milli səviyyədə müvafiq qanunvericilik tədbirləri görmək və sosial siyasətin işlənib hazırlanması zamanı onların maraqlarını nəzərə almaq lazımdır. Lakin heç də əməkçi miqrantlara qarşı yönəlmiş bütün diskriminasiyaları yalnız qanunvericiliyin köməyi ilə aradan qaldırmaq mümkün deyildir. İşə daxil olmaq, peşə hazırlığı imkanlarına münasibətdə digər tədbirlər də görülməlidir[1]. Beynəlxalq səviyyədə iqtisadi inkişaf strategiyasına sosial yönümlülük verən institut və mexanizmlərin gücləndirilməsi məqsədi ilə qlobal sosial siyasətin işlənməsi vacibliyi haqqında sazişlər mövcuddur. Belə bir sosial siyasət əmək miqrasiyasını da əhatə etməli, onun əsasında əməkçi miqrantların və onların ailə üzvlərinin qarşılaşdığı xüsusi problemlər üzrə minimal standartlar durmalıdır. Belə ki, heç bir dövlət nə qanunvericiliyində, nə də praktikasında bu standlartlardan aşağı düşülməsinə imkan verməlidir. Bu beynəlxalq standartlar miqrasiya, o cümlədən beynəlxalq əmək miqrasiyası ilə əlaqədar problemləri həll etmək məqsədi daşıyan milli qanunyaratmanın əsasları kimi çıxış etməlidir.

Beynəlxalq hüquqa əsasən insan hüquq və azadlıqlarına hörmət prinsipini gətirən BMT Nizamnaməsinin qəbulu və özündə insan hüquqları sahəsində prinsip və normaların sistemini əks etdirən beynəlxalq müqavi-

---

[1] Documentinq Discrimination Aqainst Miqrant Workers in the labour Market: A comparative study of four European Cointrus. Geneva: ILO. 2000, p.104.

lələrin işlənib hazırlanması nəticəsində beynəlxalq hüququn yeni bir sahəsi – insan hüquqlarının beynəlxalq müdafiəsi sahəsi meydana çıxdı və hələ də yüksək sürətlə inkişaf etməkdədir. Onun mühüm elementlərindən biri də əməkçi miqrantların beynəlxalq hüquqi müdafiəsidir. Əmək miqrasiyasının müasir beynəlxalq hüquqi tənzimlənməsi müvafiq sahədə dövlətlərarası münasibətlərin inkişafı prosesində işlənib hazırlanmış ikitərəfli və çoxtərəfli sazişlər səviyyəsində, universal və regional təşkilatlar çərçivəsində həyata keçirilir. Beynəlxalq hüquqi ədəbiyyatda əməyin beynəlxalq hüquqi tənzimlənməsinin mahiyyəti və məqsədinə böyük maraq mövcuddur. Belə ki, bir çox mütəxəssislər iddia edirlər ki, burada əsas məqsəd hüququn unifikasiyasıdır. Lakin əmək normalarının məhdudlaşdırılmasına yol verən və haqq qazandıran, bununla da, əmək şəraitinin pisləşməsinə səbəb olan bu nöqteyi-nəzər düzgün deyildir[1]. Bu istiqamətdə daha əsaslı yanaşma S.A.İvanova məxsusdur. Belə ki, onun fikrincə, bəzən qeyd edirlər ki, beynəlxalq hüquqi tənzimetmənin məqsədi ilk növbədə əmək qanunvericiliyinin unifikasiyasıdır, yəni müxtəlif dövlətlərdə eyni və ya bənzər əmək şəraitini nəzərdə tutan əmək haqqında qanunların qəbul edilməsidir. Bu yanlış fikirdən başqa bir şey deyildir. Belə hal BƏT-in yaradılmasına kimi mövcud idi. 1919-cu ildə BƏT yaradıldıqda onun əsas məqsədlərindən biri kimi rəsmi olaraq əmək şəraitinin yaxşılaşdırılması bəyan edildi. Unifikasiyaya isə artıq bu məqsədə nail olmaq və bu məqsədə gedən yoldakı maneələri təmizləmək üçün bir vasitə kimi baxılmalıdır[2].

BƏT-in praktikası da göstərir ki, əməyin beynəlxalq hüquqi tənzimlənməsində əsas məqsəd əmək şəraitinin yaxşılaşdırılmasıdır[3]. S.A.İvanovun qeyd etdiyi kimi, əməyin beynəlxalq mühafizəsi insan hüquqlarının beynəlxalq müdafiəsinin inkişafına və təmininə, o cümlədən əməkçilərin geniş kütləsinin əmək şəraitinin yaxşılaşdırılmasına yardım göstərir [4]. Əməkçi miqrantların hüquqlarının müdafiəsində insan hüquqları sahəsində qəbul olunmuş BMT-in konvensiyalarının və digər beynəlxalq hüquqi aktların, xüsusən 1966-cı il iqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın (3 yanvar 1976-cı il tarixində qüvvəyə minmişdir) və Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (23 mart 1976-cı il tarixində qüvvəyə minmişdir), həmçinin İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Belnəlxalq Konvensiyanın mühüm rolu vardır. İnsan hüquqları haqqında Beynəlxalq Paktlarda ilk növbədə göstərilir ki, burada bütün insan hüquqları iştirakçı dövlətlərin beynəlxalq hüquqi öhdəliyi formasında əks olunmuşdur. Bu, insan hüquqlarına hörmətin genişlənməsi və inkişafı sahəsində dövlətlərarası, əməkdaşlığın yeni mərhələsini açdı. Paktların bir çox müddəaları əməkçi miqrantların statusunun beynəlxalq hüquqi tənzimlənməsində birbaşa əhəmiyyətə malikdir.

Miqrasiya, o cümlədən beynəlxalq əmək miqrasiyası proseslərinin universal səviyyədə öyrənilməsi və tənzimlənməsi istiqamətində geniş miqyaslı iş aparan beynəlxalq təşkilatlardan biri də Beynəlxalq Miqra-

---

[1] Овсюк А.М. Международно-правовая защита трудящихся – мигрантов и их дикриминация при капитализме. Киев, 1980, с.31.

[2] Иванов С.А. Проблемы международного регулирования труда. М., 1990, с.14-15.

[3] Yenə orada, s.8.

[4] Yenə orada, s.8.

siya Təşкilatıdır[1]. BMqT 1951-ci il deкabrın 5-də Belçiкanın paytaxtı Brüssel şəhərində кeçirilən miqrasiya məsələləri üzrə кonfransda yaradılmışdır. BMqT-nin Konstitusiyası 1953-cü ildə qəbul olunmuş, sonralar ona müvafiq əlavə və düzəlişlər edilmişdir. Əvvəllər Avropadaкı miqrantların, qaçqınların və məcburi кöçкünlərin müharibədən sonraкı problemlərinin həlli və nizamlı trans-Atlantiк miqrasiya prosesinə yardım məqsədi ilə Avropada Miqrasiya məsələləri üzrə Höкümətlərarası Komitə кimi yaradılmış BMqT tədricən öz fəaliyyətini genişləndirərəк diqqətini müxtəlif miqrasiya proseslərinə yönəltmişdir. Mövcud adını 1989-cu ildə qəbul etmiş Təşкilat coğrafi və proqram baxımından daha qlobal problemlərin həlli ilə məşğul olur[2]. Yarandığı vaxtdan Təşкilat təxminən 13 mln. miqranta 125-dən çox ölкədə məsкunlaşmaqda кöməкliк göstərmişdir. Miqrasiya probleminə artan diqqət BMqT-nin üzvlərinin və müşahidəçilərinin sayının daima artmasına səbəb olmuşdur. Hal-hazırda Təşкilatın 86 üzvü və 40-dən artıq müşahidəçisi var. Mənzil-qərargahı Cenevrə şəhərindədir. Humanitar və nizamlı miqrasiyanın miqrant və cəmiyyətləri bəhrələndirməsi prinsipini bir öhdəliк кimi öz üzərinə götürən bu Təşкilat tərəfdaşları ilə birliкdə beynəlxalq ictimaiyyətdə aşağıdaкı sahələrdə fəaliyyət göstərir: miqrasiya problemlərinin həllində əməli кöməкliк göstərməк; miqrasiya vasitəsilə sosial və iqtisadi inкişafa yardım etməк; miqrasiya məsələlərinin başa düşülməsini yaxşılaşdırmaq; miqrantların şərəf və ləyaqətinə və onların rifah halına hörmətlə yanaşılmasına nail olmaq[3]. BMqT-nin Konstitusiyasına əsasən, bu Təşкilatın növbəti funкsiya və məqsədləri mövcuddur: mövcud imкanlarının кifayət qədər olmadığı və ya miqrasiyanı nizamlamaq imкanında olan dövlətdə xüsusi yardım olmadan yerdəyişə bilməyən miqrantların yerdəyişməsini təşкil etməк üçün tədbirlər görməк; müvafiq dövlətlərin xahiş və razılığı əsasında yığma, seçmə, miqrasiyaya hazırlıq, dil hazırlığı, miqrantların məlumatlandırılması, tibbi müayinə, yerdəyişmə, qəbul və inteqrasiyaya yardım edəcəк tədbirlər görməк, miqrasiyaya dair məsələlərdə məsləhət xidmətləri göstərməк və Təşкilatın məqsədlərinə müvafiq olaraq digər yardımlar etməк; dövlətlərin xahişi və ya maraqlı beynəlxalq təşкilatlarla əməкdaşlıq əsasında кönüllü repatriasiya da daxil olmaqla кönüllü əкs miqrasiya кimi analoji xidmətləri təmin etməк; dövlətlər, hətta beynəlxalq və başqa təşкilatlar üçün fiкir və təcrübə mübadiləsi кeçirtməк, beynəlxalq miqrasiya sahəsində əməкdaşlığı və əlaqələri gücləndirməк, praкtiкi məsələlərin həllinə xidmət edən problemlərin tədqiqini təmin etməк məqsədi ilə forumlar təşкil etməк və qaçqınların, yerdəyişən şəxslərin və beynəlxalq miqrasiya xidmətlərinə ehtiyacı olan digər şəxslərin mütəşəккil кöçürülməsi ilə məşğul olmaq.

Təşкilat öz funкsiyalarını yerinə yetirərкən miqrasiya, qaçqınlar və insan resursları problemləri ilə məşğul olan beynəlxalq höкumətlərarası və qeyri-höкumət təşкilatları ilə bu sahədə beynəlxalq fəaliyyəti əlaqələndirməк məqsədi ilə sıx əlaqə saxlayır və immiqrantların sayı və qəbul olunma кriteriyaları üzərindəкi nəzarətin dövlətin daxili yurisdiкsiyasına daxil olması faкtını qəbul edərəк öz funкsiyalarını yerinə yetirərкən müvafiq dövlətlərin qayda, qanun və siyasətini nəzərə alır.

[1] Международная Организация по миграции. Информационный документ. Женева, июнь 1992 г.
[2] http: //WWW. un_az.org/iom/azeri/anivstat.htm.
[3] http: //WWW. un_az.org/iom/azeri/anivstat.htm.

Formal olaraq Birləşmiş Millətlər sisteminə daxil olmayan BMqT BMT-nin idarə və əməli qurumları ilə sıx əlaqədə fəaliyyət göstərən, miqrasiya sahəsində möhtəşəm təcrübəyə və praktiki yeniliklərə malik olan, miqrasiyanın bütün aspektləri ilə məşğul olan aparıcı beynəlxalq, hökumətlərarası və humanitar təşkilat kimi tanınmışdır[1]. Artıq 20-ci illərdən başlayaraq əməkçi miqrantlara və onların ailələrinə qarşı ədalətli hüquq normalarının müəyyən edilməsi və onların həyata keçirilməsi üçün göstərilən səylərə Beynəlxalq Əmək Təşkilatı başçılıq edir[2].

Bununla əlaqədar onu qeyd etmək lazımdır ki, BƏT-in yarandığı ilk andan qarşısında duran ilkin məqsədlərdən biri də Nizamnaməsində də əks olunduğu kimi, xarici əməkçilərin hüquqi müdafiəsi olmuşdur. Bu təşkilatın əsaslandığı mühüm prinsiplər sırasına «əməyin əmtəə olmaması» prinsipi də daxildir. Həmçinin 1944-cü ildə BƏT-in Baş Konfransının 26-cı sessiyasında qəbul edilmiş və BƏT-in Nizamnaməsinin ayrılmaz hissəsi hesab edilən BƏT-in məqsəd və vəzifələri haqqında Bəyannamədə işçilərin, yerdəyişməsinə yönələn proqramların genişlənməsi məsələsi də nəzərdən keçirilir[3]. Beynəlxalq əmək miqrasiyasının tənzimlənməsi sahəsində BƏT-in fəaliyyətində iki əsas element fərqləndirilir. Əvvəla, BƏT-in müəyyən konvensiyaları və tövsiyələri miqrantlarla bağlı milli qanunların, habelə məhkəmə və inzibati prosedurların necə olması üçün nümunə rolunu oynayır. İkincisi, texniki əməkdaşlıq sahəsindəki öz layihələri sayəsində BƏT əməkçi miqrantların insan hüquqlarının təmin edilməsinə yardım göstərir. Beynəlxalq əmək miqrasiyası problemləri üzrə əsas sənədlərə beynəlxalq ictimaiyyətin hazırladığı və BƏT çərçivəsində qəbul edilmiş konvensiya və tövsiyələr daxildir. Kompleks şəkildə bu konvensiyalar işə götürülmə, işə düzəlmə və əmək şəraitindən başlayaraq miqrantların əməyinin və həyatının bütün aspektlərini əhatə edir. Bu konvensiyalarda peşə yönümlü xidmətlər və işə düzəlmə imkanlarına; əməkçi miqrantların peşə hazırlığına və ya şəxsi seçimlərə əsasən işləməsinə; işsizlik halında digər işin təqdim olunmasına təminat verilməsinə; əməyə görə mükafatlandırmaya; əmək şəraiti, o cümlədən istirahət müddəti, illik ödənişli məzuniyyət və sosial təminat sahəsində tədbirlərə; həmkarlar ittifaqlarına üzv olmağa; həyat şəraiti, təhsil və sağlamlığın müdafiəsi imkanlarına münasibətdə əməkçi miqrantların və onların ailə üzvlərinin olduğu dövlətdə vətəndaşlarla bərabər imkanlara və rəftara malik olması öz hüquqi ifadəsini tapmışdır.

Əməkçi miqrantlar haqqında BƏT-in 97 saylı Konvensiyası 22 yanvar 1952-ci ildə qüvvəyə minmişdir. Konvensiyanın 11-ci maddəsi «əməkçi miqrant» anlayışını aşağıdakı şəkildə müəyyən edir: «Əməkçi miqrant bir dövlətdən digər dövlətə öz şəxsi hesabına olmayaraq iş tapmaq məqsədi ilə miqrasiya edən və müvafiq qanunun əməkçi miqrant qismində çıxış etməsinə imkan verdiyi bütün şəxslərdir[4]. Konvensiyanın fəaliyyət sferasına sərhəd işçiləri müstəqil peşə üzvləri və artistlər, həmçinin dənizçilər daxil edilmir. Konvensiya onu ratifikasiya etmiş BƏT-in üzv dövlətlərinin

---

[1] http: //WWW. un_az.org/iom/azeri/anivstat.htm.

[2] İnsan Hüquqları: Bəşər rifahının təməli.Bakı, 2001, s.231.

[3] Устав Международной Организации Труда и Регламент Международной Конференции Труда. Женева: МБТ, 1972, с.25.

[4] Конвенции и рекомендации МОТ, принятые до 1967 г., цитируются по изданию: Международная Организация Труда, Конвенции и рекомендации. 1919-1966. Женева. МБТ, 1966, с.969.

üzərinə onların ərazisində qanuni şəkildə olan immiqrantlara, onlara qarşı milli, dini, irqi və ya cinsi əlamətlərə görə hər hansı bir diskriminasiyaya yol vermədən əmək şəraiti, həmkarlar ittifaqına daxil olmaq, həyat şəraiti, sosial təminat, vergilər və məhkəmə icraatına münasibətdə vətəndaşların istifadə etdiyi rejimdən az əlverişli olmayan rejimin verilməsi öhdəliyini qoyur. BƏT-in Miqrasiya sahəsində sui-istifadə və əməkçi miqrantların bərabər imkan və rəftarının təmini haqqında 1975-ci ildə qəbul edilmiş və 1978-ci ildə qüvvəyə minmiş 143 saylı Konvensiyasının 1-ci maddəsində göstərilir ki, bu Konvensiyanın qüvvədə olduğu BƏT-in hər bir üzv dövləti bütün əməkçi miqrantların əsas hüquqlarına riayət etməlidir.[2] Lakin Konvensiya bu əsas hüquqların siyahısını əks etdirmir. Bütün əməkçi miqrantları əhatə edən 143 saylı Konvensiya (I Bölmə. Miqrasiya sahəsində sui-istifadə) qeyri-qanuni miqrasiya axınlarına, miqrantların qeyri-qanuni işlədilməsinə, miqrantların, iş axtaranların qanunsuz hərəkətlərinin təşkilatçılarına və immiqrantları qeyri-leqal işə götürənlərə qarşı yönəlmişdir.

Beynəlxalq səviyyədə 1975-ci il tarixli BƏT-in 143 saylı Konvensiyası bir tərəfdən qeyri-qanuni miqrantların müəyyən hüquqlarının təmininə, digər tərəfdən isə qeyri-qanuni miqrasiya və məşğulluğun qarşısını almağa yönəlmiş ilk cəhddir. Yuxarıda göstərilən hər iki konvensiya əməkçi miqrantlarla rəftarın minimal hədlərini müəyyən edir. 31 dekabr 2000-ci il məlumatına əsasən Konvensiyaları müvafiq olaraq 41 və 18 dövlət ratifikasiya etmişdir. Əksər dövlətlər isə bu konvensiyalarda sadalanmış hüquqları xaricilərə verməyə hazır olmadıqlarından və ya bunu etmək istəmədiklərindən onları ratifikasiya etməmişlər. 1962-ci ildə Sosial təminat sahəsində dövlətin vətəndaşlarının, xaricilərin və vətəndaşlığı olmayan şəxslərin bərabərhüquqluluğu haqqında BƏT-in 118 saylı Konvensiyası qəbul edilmişdir. Konvensiyanın müddəaları bu Konvensiyanı ratifikasiya etmiş BƏT-in üzv dövlətlərinin ərazisində BƏT-in Konvensiyanı qəbul etməmiş hər hansı bir iştirakçı dövlətinin vətəndaşlarının birinci dövlətin vətəndaşları ilə bərabər sosial təminatlardan istifadə etmək hüququnun təmininə yönəlmişdir. Bundan başqa, vətəndaşlıqla bağlı fərqlərin aradan qaldırılması üçün konvensiyalarda tez-tez «hər hansı bir fərq qoyulmadan bütün əməkçilər», «bütün işləyən şəxslərə tətbiq edilən konvensiya» kimi ifadələrdən istifadə edilir[1].

Əməkçi miqrantların hüquqi statusunun beynəlxalq tənzimlənməsində BƏT-in tövsiyələrinin rolunu qiymətləndirməmək düzgün olmazdı. Düzdür, bü tövsiyələr hüquqi məcburetmə xarakterinə malik deyildir, lakin onlar böyük əxlaqi-siyasi əhəmiyyət kəsb edir və əmək hüquqi sferasında regional və ikitərəfli səviyyədə qəbul edilmiş bir çox müqavilələrdə hüquqi norma kimi ifadə olunurlar. Əməkçi miqrantların hüquqi vəziyyətinin tənziminə yönəlmiş BƏT-in tövsiyələri sırasında ilk növbədə əməkçi miqrantlar haqqında 1949-cu il tarixli 86 saylı Tövsiyəni qeyd etmək lazımdır. Bu Tövsiyə BƏT-in hər bir üzv dövlətinə işə götürmənin bütün imkanlarından istifadə etməyi və bu imkanları inkişaf etdirməyi, o cümlədən bu məqsədlərlə işçi qüvvəsinin beynəlxalq miqyasda bölüşdürülməsinə, ilk növbədə işçi qüvvəsinin bol olduğu dövlətlərdən əməkçilərin işçi qüvvəsinə tələbat olan dövlətlərə yerdəyişməsinə yardım etməyi təklif

[1] Овсюк А.М. Международно-правовая защита трудящихся – мигрантов и их дикриминация при капитализме. Киев,1980, с.29.

edir. Müvafiq sahədə digər bir tövsiyə 1975-ci il tarixli BƏT-in Əməkçi miqrantlar haqqında 151 saylı Tövsiyəsidir. Bu beynəlxalq sənəddə növbəti məsələlərə baxılır: əməkçi miqrantların və onların ailə üzvlərinin qəbul edən dövlətin vətəndaşları ilə bərabər imkanlar və rəftar hüquqi; qəbul edən dövlətin əməkçi miqrantların ailələri ilə birləşməsinə, sağlamlığının mühafizəsinə, məlum kateqoriya şəxslərin sosial xidmətlərə azad daxil olmaq imkanlarının təmininə yönəlmiş sosial siyasəti; məşğulluq və yaşayış.

Texniki əməkdaşlığa gəldikdə isə BƏT əməkçi miqrantlara qarşı ayrı-seçkiliklə mübarizə üçün regionlararası layihə işləyib hazırlamışdır. Sənaye cəhətdən inkişaf etmiş və miqrantları qəbul edən ölkələrə istiqamətlənmiş bu layihə, öz qarşısına, qeyri-rəsmi ayrı-seçkilik problemini və ya əməkçi miqrantlara qarşı qeyri-bərabər münasibətlərin qanunla qadağan olunduğu, amma onun praktikada mövcud olduğu hallarla bağlı faktiki ayrı-seçkilik problemini həll etmək məqsədini qoyur. İlkin tədqiqatların nəticələrindən bəlli olduğu kimi, bu cür ayrı-seçkilik halları geniş yayılmışdır və heç də tamamilə aradan qalxmamışdır. Layihənin məqsədi, siyasəti formalaşdıran şəxsləri, işə götürənlərin və əməkçilərin təşkilatlarını, ayrı-seçkiliklə mübarizə üçün kadrların hazırlanması ilə məşğul olan şəxsləri və qeyri-hökumət təşkilatlarını qanunların və texniki yardım göstərilməsinin və kadrlar hazırlanmasının digər müvafiq mexanizmlərinin, həmin tədbirlərin səmərəliliyinin beynəlxalq səviyyədə müqayisəsi əsasında səmərəliliyinin yüksəldilməsi yolları haqqında məlumatlandırmaq yolu ilə dövlətlərə ayrı-seçkiliyə qarşı mübarizədə köməklik göstərməkdədir. 1995-ci ildə BƏT Ayrı-seçkiliyin qarşısının alınması və azlıqların müdafiəsi üzrə Yarımkomissiyaya bir sənəd təqdim etmişdir; həmin sənəddə qeyd edilir ki, BƏT-in fəaliyyəti əməkçi miqrantlara qarşı bərabər münasibət konsepsiyasının qəbul edilməsinə, habelə ayrı-seçkiliyin ləğvinə xeyli dərəcədə yardımçı olmuşdur. Sənəddə, həmçinin, beynəlxalq hüquqi normaların, miqrantları qəbul edən ölkələrin Konstitusiyaları və milli qanunvericiliklərinə tətbiqi əsasında Afrika, Amerika, Asiya və Sakit Okean regionu və Avropada əməkçi miqrantların hüquqlarının qorunmasına yönəldilmiş yeni tədbirlər göstərilir[1]. Əməkçi miqrantlar və onların ailə üzvlərinə dair beynəlxalq sazişlər içərisində mərkəzi yer 18 dekabr 1990-cı ildə BMT Baş Məclisinin 45/158 saylı qətnaməsi ilə qəbul edilmiş bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiyaya məxsusdur. (Azərbaycan Respublikası 11 dekabr 1998-ci il tarixli Qanunu ilə müvafiq Konvensiyaya qoşulmuşdur). Konvensiya universal xarakter daşıya biləcək əsas normaları özündə əks etdirməklə əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarını təmin etmək məqsədi ilə işlənilmişdir. Struktur baxımından Konvensiya preambula, 9 hissə, 93 maddədən ibarətdir.

Konvensiya milyonlarla insanı və beynəlxalq ictimaiyyətin çoxlu sayda dövlətini özündə birləşdirən əmək miqrasiyasının miqyasını və əhəmiyyətini əks etdirir. Konvensiyanın 1-ci maddəsinin I bəndinə əsasən, onun müddəaları cinsinə, irqinə, dərisinin rənginə, dilinə, dininə və əqidəsinə, siyasi və digər baxışlarına, milli, etnik və ya sosial mənşəyinə, vətəndaşlığına, yaşına, iqtisadi, əmlak, ailə və silki vəziyyətinə və

---

[1] İnsan Hüquqları: Bəşər rifahının təməli. Bakı, 2001, s.232-233.

hər hansı bir digər əlamətinə görə fərq qoyulmadan bütün əməкçi miqrantlara və onların ailə üzvlərinə münasibətdə tətbiq edilir[1].

Konvensiya iştiraкçı dövlətlərin üzərinə qeyri-disкriminasiya prinsipi əsasında bütün əməкçi miqrantların və onların ailə üzvlərinin hüquqlarına hörmət etməк və onları təmin etməк öhdəliyini qoyur (II hissə "Hüquqlara münasibətdə qeyri-disкriminasiya"). Konvensiyanın III hissəsi ("Bütün əməкçi miqrantların və onların ailə üzvlərinin insan hüquqları") bu кateqoriya şəxslərin siyasi, mülкi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsinə hüquqi təminat verir və bu hüquqları hərtərəfli tənzimləyir. Belə кi, Konvensiya əməкçi miqrantların və onların ailə üzvlərinin sərbəst yerdəyişmə hüququnu tanıyaraq göstərir кi, əməкçi miqrantlar və onların ailə üzvləri mənşə dövləti də daxil olmaqla istənilən dövləti sərbəst şəкildə tərк edə bilərlər. Bu hüquq yalnız qanunla milli təhlüкəsizliyin, ictimai qaydanın (*ordre public*), əhalinin sağlamlığının və ya mənəviyyatının və ya digərlərinin hüquq və azadlıqlarının və Konvensiyanın müvafiq hissəsi ilə tanınan hüquqlarla üst-üstə düşən hüquqların müdafiəsi üçün zəruri hallarda məhdudlaşdırıla bilər. Əməкçi miqrantlar və onların ailə üzvləri istənilən zaman öz mənşə ölкələrinə qayıtmaq və orada qalmaq hüququna maliкdirlər. Bundan başqa Konvensiyaya müvafiq olaraq, əməкçi miqrantlar və onların ailə üzvlərinin yaşamaq hüququ qanunla qorunur (m.9); əməкçi miqrantlar və onların ailə üzvləri işgəncə və qəddarlığa, onların şərəf və ləyaqətini alçaldan və ya qeyri-insani rəftar və cəzalara məruz qalmamalıdır (m.10); əməкçi miqrant və onun ailə üzvləri əsarət və iradəsiz vəziyyətdə saxlanılmamalı, məcburi və icbari əməyə cəlb edilməməlidir (m.11); əməкçi miqrantlar və onun ailə üzvlərinin fiкir, vicdan və din azadlığı mövcuddur (m.12); əməкçi miqrantlar və onların ailə üzvləri azadlıq və şəxsi toxunulmazlıq hüququna maliкdirlər (m.16); əməкçi miqrantlar və onların ailə üzvləri məhкəmə və tribunallarda müvafiq dövlətin vətəndaşları ilə bərabər hüquqlara maliкdirlər (m.18); əməкçi miqrantlar müкafatlandırılma ilə əlaqədar olaraq işə götürən dövlətin vətəndaşlarından az əlverişli olmayan rəftardan istifadə edirlər (m.25); iştiraкçı dövlətlər əməкçi miqrantlar və onların ailə üzvlərinin qanuna müvafiq olaraq onların sosial, iqtisadi, mədəni və digər maraqlarının müdafiəsi məqsədi ilə təşкil edilən yığıncaqlarda və həmкarlar ittifaqlarının tədbirlərində və digər assosiasiyalarda iştiraк hüququnu, yalnız müvafiq təşкilatın qaydalarına tabe olmaqla həmкarlar ittifaqlarına və yuxarıda sadalanan digər assosiasiyalara daxil olmaq hüququnu və кöməк və dəstəк üçün istənilən həmкarlar ittifaqına və yuxarıda sadalanan assosiasiyalara müraciət etməк hüququnu tanıyır (m.26) və s.

Sosial təminatlara gəldiкdə isə Konvensiyaya əsasən əməкçi miqrantlar və onların ailə üzvləri bu sahədə işə götürən dövlətin vətəndaşları ilə bərabər şəкildə müvafiq dövlətin qanunvericiliyində və iкitərəfli və ya çoxtərəfli müqavilələrində nəzərdə tutulmuş hüquqlardan istifadə edirlər. Onlar işə götürən dövlətin vətəndaşları ilə barəbar əsasda həyatlarını qorumaq və ya sağlamlıqlarına qarşı bərpaolunmaz zərərlərdən qaçmaq üçün vacib olan istənilən tibbi yardım almaq hüququna maliкdirlər. Konvensiyanın əməкçi miqrantlar və onların ailə üzvlərinin hüquq və azadlıqlarına dair müddəaları tamamilə 1948-ci il Ümumdünya İnsan Hüquqları

---

[1] Права человека. Сборник международных договоров. т.I, ч. II. Универсальные договоры. ООН. Нью- Йорк и Женева. 2002, с 63.

Bəyannaməsinin, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın və İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın və insan hüquqları sahəsində digər mühüm universal sazişlərin mühüm müddəalarına uyğundur. Konvensiyanın 24-cü maddəsinə müvafiq olaraq, hər bir əməkçi miqrant və onun hər hansı bir ailə üzvü hər yerdə öz hüquq subyektliyinin tanınması hüququna malikdir. Konvensiyanın IV hissəsi işə götürən dövlətdə sənədlərə və ya daimi statusa malik olan əməkçi miqrantların və onların ailə üzvlərinin əlavə hüquqlarına həsr olunmuşdur. Onlar gedişin, gəlişin, qalmanın bütün şərtləri barədə tam məlumatlandırılmaq; öz maraqlarının müdafiəsi məqsədi ilə assosiasiyalar və həmkarlar ittifaqları yaratmaq; qəbul edən dövlətin ərazisində sərbəst yerdəyişmək və yaşayış yeri seçmək; olduğu dövlətin qanunvericiliyinə uyğun olaraq bu dövlətin ictimai həyatında iştirak etmək, burada seçmək və seçilmək hüququna və digər hüquqlara malikdirlər. Onu da qeyd etmək lazımdır ki, əvvəlki konvensiyalarla müqayisədə Konvensiya əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarını ətraflı tənzimləyir, həmçinin bu sferada beynəlxalq əməkdaşlıq məsələlərinə böyük diqqət ayırır. Belə ki, Konversiyanan "Əməkçilərin və onların ailə üzvlərinin beynəlxalq miqrasiyasına münasibətdə normal, ədalətli, hümanist və qanuni şəraitin yaradılmasında əməkdaşlıq" adlı VI hissəsi əmək miqrasiyası sahəsində dövlətlərin birbaşa əməkdaşlığına həsr olunmuşdur. Üzv dövlətlər əməkçi miqrantlar və onların ailə üzvlərinin beynəlxalq miqrasiyasına dair problemlər ilə məşğul olan müvafiq xidmətlərə malik olmalıdırlar. 65-ci maddənin 1-ci bəndinə əsasən, onların funksiyalarına miqrasiyaya dair siyasətin işlənməsi və həyata keçirilməsi; digər dövlətlərin səlahiyyətli orqanları ilə belə miqrasiya haqqında məlumat mübadiləsi, məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək; xüsusən işə götürənlərə, əməkçilərə və onların təşkilatlarına miqrasiya barədə siyasət, qanun və qaydalar, miqrasiya sahəsində digər dövlətlərlə bağlanılmış sazişlər və digər müvafiq məsələlər barədə məlumatlar vermək; gəliş, gediş, qalmaq, mükafatlandırılan fəaliyyət, köçmək və geri qayıtmaq barədə, həmçinin işə götürən dövlətdə həyat və əmək şəraiti, gömrük, valyuta, vergi və digər müvafiq qanun və qaydalar haqqında məlumatlar vermək daxildir. Həmin maddənin 2-ci bəndinə görə, iştirakçı dövlətlər əməkçi miqrantlar və onların ailə üzvlərinə lazımi konsul və sosial, mədəni və digər tələbatlarının ödənilməsi üçün vacib olan başqa xidmətlərin göstərilməsi üçün müvafiq hallarda əməkdaşlıq edirlər. İştirakçı dövlətlər onların ərazi hüdudlarında daimi statusa malik olmayan əməkçi miqrantların və onların ailə üzvlərinin olduğu halda belə vəziyyətin saxlanılmasına yol verməmək üçün münasib tədbirlər görürlər.

1990-cı il tarixli Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiyada ilk dəfə olaraq nəzarət mexanizmi nəzərdə tutulmuşdur. Belə ki, 72-ci maddəyə əsasən, Konvensiyanın tətbiqinə nəzarət məqsədi ilə Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə yaradılır. Bu komitə Konvensiyanın qüvvəyə minmə anında 10, onun 41-ci dövlət üçün qüvvəyə mindiyində isə 14 ekspertdən ibarət tərkibdə təşkil edilir. Bu ekspertlər yüksək əxlaqi keyfiyyətlərə malik, qərərsiz və Konvensiyanın əhatə etdiyi sahə üzrə peşəkar şəxslər olmalıdır. Komitənin üzvləri gizli səsvermə yolu ilə iştirakçı dövlətləri təmsil edən namizədlər siyahısından üzv dövlətlər tərəfindən seçilir. Bu zaman həm mən-

şə, həm də işə götürən dövlətləri, o cümlədən əsas hüquq sistemlərinin nümayəndələrini əhatə edən ədalətli coğrafi bölgü prinsipi əsas götürülür. Hər bir dövlət Komitəyə öz vətəndaşları sırasından yalnız bir şəxsin namizədliyini irəli sürə bilər. Komitə üzvləri 4 il müddətinə seçilir və onlar təkrarən namizədliklərinin irəli sürüldüyü zaman yeni müddətə seçilə bilərlər. Onların ölümü, öz öhdəliklərini müəyyən səbəblər üzündən daha icra edə bilməyəcəkləri haqqında bəyan etdikləri və ya istefaya getdikləri halda bu ekspertlərin namizədliyini irəli sürən iştirakçı dövlət müddətin qalan hissəsi üçün öz vətəndaşlarının içərisindən başqa bir ekspert təyin edir. Komitənin üzvləri BMT-nin tapşırıqlarını yerinə yetirən ekspertlərin BMT-nin immunitet və imtiyazları haqqında Konvensiyanın müvafiq bölməsində nəzərdə tutulmuş immunitet və imtiyazlarından istifadə edirlər. Komitə öz prosedur qaydalarını qəbul edir, adətən ildə bir dəfə iclas keçirir. Komitə bu Konvensiyanın üzvü olan hər bir iştirakçı dövlət tərəfindən təqdim olunan məruzələrə baxır və maraqlı dövlətə lazımi qeydlərini və iradlarını göndərir. Bu iştirakçı dövlət müvafiq maddəyə uyğun olaraq, Komitə tərəfindən edilmiş istənilən iradlara aid qeydlərini Komitəyə təqdim edə bilər. Komitə bu məruzələrə baxarkən iştirakçı dövlətlərdən əlavə məlumat istəyə bilər. BMT-nin Baş Katibi Komitənin hər bir növbəti sessiyasından əvvəl Beynəlxalq Əmək Bürosunun direktoruna müvafiq iştirakçı dövlətlər tərəfindən təqdim edilmiş məruzələrin və bu məruzələrin baxılmasına dair məlumatların surətlərini göndərməklə imkan yaradır ki, Komitəyə kömək məqsədilə Büro Konvensiya tərəfindən tənzimlənən və BƏT-in səlahiyyətləri dairəsinə daxil olan məsələlər barədə ekspert rəyi təqdim etsin. Komitə öz işinin gedişatında Büro tərəfindən təqdim edilmiş materialları və qeydləri nəzərə alır. Həmçinin BMT-nin Baş Katibi Komitə ilə məsləhətləşmələrdən sonra başqa ixtisaslaşdırılmış müəssisələrə, habelə dövlətlərarası təşkilatlara onların səlahiyyətləri dairəsinə daxil olan məruzələrin surətini göndərə bilər. Komitə BMT-nin ixtisaslaşdırılmış müəssisələrinə və digər orqanlarına, həmçinin dövlətlərarası və başqa maraqlı təşkilatlara onların tənzimetmə predmetinə aid olan və Konvensiya tərəfindən tənzimlənən məsələlərə baxılması üçün Komitəyə yazılı surətdə məlumatların təqdim edilməsini təklif edə bilər, həmçinin bu təşkilatları onların səlahiyyətlərinə daxil olan məsələlərin müzakirəsi keçirilən iclaslarda iştirak və çıxış etmək üçün dəvət edə bilər. Komitə hər il BMT-nin Baş Məclisinə iştirakçı dövlətlərin məruzi və qeydlərinə əsaslanan rəy və təkliflərdən ibarət Konvensiyanın yerinə yetirilməsi barədə məruzə təqdim edir və BMT-nin Baş Katibi hər il Komitənin məruzələrini Konvensiyanın iştirakçı dövlətlərinə, İqtisadi və Sosial Şuraya, BMT-nin İnsan Hüquqları Komissiyasına, Beynəlxalq Əmək Bürosunun direktoruna və başqa müvafiq təşkilatlara göndərir.

Beləliklə, 1990-cı il tarixli Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya əməkçi miqrantların hüquqi statusunun tənzimlənməsində əvəzsiz rola malik olub bu sahədə qəbul edilmiş digər beynəlxalq sənədlərlə müqayisədə məlum kateqoriya şəxslərin hüquqlarını və müdafiəsini ətraflı və hərtərəfli şəkildə tənzimləyir. Baş Məclisin 45/158 saylı qətnaməsi ilə müvafiq Konvensiyanın qəbulu faktı əməkçi miqrantların müdafiəsi məsələləri üzrə geniş beynəlxalq əməkdaşlığı ifadə edir. Lakin BƏT-in 97 və 143 saylı Konvensiyaları kimi bu Konvensiyanın da azsaylı dövlət tərəfindən ratifikasiya edilməsi onun kifayət qədər effektiv olmamasına

səbəb olur. Lakin bu Konvensiyanı ratifikasiya etməyən əksər dövlətlər belə onun əsas müddəalarını öz milli qanunvericiliklərində və gündəlik praktikalarında tətbiq etməyə çalışırlar. Nə qədər ki, əksər dövlətlər bu konvensiyalara qoşulmayacaq onların müddəalarında ifadə olunan beynəlxalq konsensus praktiki əhəmiyyətdən daha çox nəzəri əhəmiyyət kəsb edəcəkdir. Hələ ki beynəlxalq əmək miqrasiyası sahəsində yeni standartların yaradılmasından daha çox, onun müddəalarının milli qanunvericiliyiə implementasiyası zəruridir. Belə ki, bu sferada kifayət qədər standartlar formalaşıb və yalnız onların bütün dövlətlərin praktikasında və təcrübəsində istifadə edilməsi lazımdır. Bu standartlar bu və ya digər dərəcədə sənayecə inkişaf etmiş ölkələrin milli qanunvericiliyində nəzərə alınır. Onların praktiki cəhətdən realizəsi isə bir çox amillərdən, o cümlədən bu və ya digər dövlətin iqtisadi vəziyyətindən asılıdır.

## РЕГУЛИРОВАНИЕ ТРУДОВОЙ МИГРАЦИИ НА УНИВЕРСАЛЬНОМ УРОВНЕ И ЮРИДИЧЕСКОЕ СОСТОЯНИЕ ТРУДЯЩИХСЯ-МИГРАНТОВ

**А.И.АЛИЕВ**

### РЕЗЮМЕ

В статье исследуются основные направления и новые тенденции проблем трудовой миграции и защиты прав трудящихся-мигрантов в современном международном праве. Отмечается, что происходящий в настоящее время рост масштабов международной трудовой миграции, а также необходимость защиты прав и свобод трудящихся-мигрантов в принимающем государстве, в целом, требуют регулирование трудовой миграции на уровне международного права, формирование и дальнейшее развитие регионального, универсального и двустороннего сотрудничества государств. Учитывая вышесказанное, в статье, исходя из содержания первоисточников по международной миграции в целом, и по трудовой миграции – в частности, подробно рассматриваются основные принципы, имеющие непосредственное отношение к этим процессам.

## THE REGULATE LABOR MIGRATION UNIVERSAL BALANCE AND POSITION LEGAL LABOR MIGRANTS

**A.I.ALIYEV**

### SUMMARY

Main directions and new tendencies of the labor migration and the problem of the protection of labor migrants rights have been researched in the article. It is mentioned in the article that both broadening of the international labor migration and importance of the protection of the labor migrants rights and freedoms – the main participants of the process of the labor migration in the accepted states – require the regulation of the labor migration at international legal level and the formulating and improving the cooperation of the states at bilateral, regional and universal level. Taking into account the maintenance of the primary sources which refer to the international migration, as well as labor migration, and determine the right to live of each human, the main principles directly relating to these processes are attentively researched in the article.